# Hava və dəniz gəmilərində Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını rəhbər tutaraq qərara alıram:

1. Müəyyən edilsin ki, «Azəraviaxətt» dövlət aviasiya şirkətinə məxsus hava gəmilərinə, habelə Azərbaycan Respublikasının digər hava gəmilərinə Azərbaycan Respublikasının Dövlət bayrağının təsviri çəkilir.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ərazisində yerləşən müəssisələrə, təşkilatlara və idarələrə məxsus dəniz ticarət gəmiləri, o cümlədən əvvəllər SSRİ-nin ixtiyarında olmuş və Azərbaycan Respublikasının mülkiyyəti elan edilmiş gəmilər Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzürlər.

***Azərbaycan Respublikasının Prezidenti***

***A.MÜTƏLLİBOV***

***Bakı şəhəri, 8 fevral 1992-ci il***

***№ 564***

***«Həyat» qəzetində dərc edilmişdir (11 fevral 1992-ci il, № 29) ( «VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikası Ali Sovetinin məlumatı»nda dərc edilmişdir (15 fevral 1992-ci il, № 3(856), maddə 76) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional